

# Qənimət Əsəd oğlu Səfərov – 70 il!

Səfərov Qənimət Əsəd oğlu 11 avqust 1951-ci ildə Cəbrayıl rayonunun Qaracallı kəndində müəllim ailəsində anadan olmuşdur. O, 1968-ci ildə Balyand kənd orta məktəbini bitirdikdən sonra, həmin il M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) mühəndis-iqtisadiyyat fakültəsinə "Neft və qaz sənayesinin iqtisadiyyatı və təşkili" ixtisası üzrə qəbul olunmuş və 1973-cü ildə həmin İnstitutu müvəffəqiyyətlə bitirmişdir.

Əmək fəaliyyətinə Mərkəzi Statistika İdarəsinin (indiki Dövlət Statistika Komitəsi) Cəbrayıl rayon hesablama stansiyasında baş mühəndis kimi başlamış, sonra isə B.Sərdarov adına Maşınqayırma zavodunda böyük mühəndis vəzifəsində çalışmışdır. O, 1977–1980-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun "Məlumat-ölçmə və hesablama texnikası" kafedrasında çalışmışdır.

Qənimət Səfərovun elmə olan həvəsi onu 1981-ci ildə Azərbaycan Dövlət Neft və Qaz Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutuna (indiki "Neftqazelmitədqiqatlayihə" İnstitutu) gətirmiş və o, həmin institutun əyani aspiranturasına daxil olmuş, 1986-cı ildə Ufa Neft İnstitutunun İxtisaslaşdırılmış Elmi Şurasında iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

Q. Səfərov 1990–2003-cü illərə kimi həmin institutda böyük elmi işçi, laboratoriya müdiri, direktorun iqtisadiyyat sahəsində elmi işlər üzrə müavini, "Neftqazelmitədqiqatlayihə" İnstitutunun "Layihələrin iqtisadi qiymətləndirilməsi" şöbəsinin rəisi vəzifəsində çalışmışdır.

Q. Səfərov 1998-ci ildə Amerika İnsan Hüquqları İnkişafı Departamenti İnstitutunun təşkil etdiyi birillik kursu bitirmiş və ona "Layihələrin idarə edilməsi" üzrə Beynəlxalq sertifikat verilmişdir. Q.Səfərov həmçinin 1999-cu ildə TASİS proqramına uyğun Oksford Universitetində (Böyük Britaniya) xüsusi kurs keçmiş və ona "Kapital qoyuluşunun idarə edilməsi", "Layihə menecmenti", "Layihələrdə qərarların qəbulu" ixtisasları üzrə Beynəlxalq sertifikat verilmişdir.

Yataqların birgə işlənməsində Çin Xalq Respublikası ilə Azərbaycan Respublikası arasındakı razılığa əsasən Q.Ə. Səfərov 2001-ci ildə ÇXR-in dəvəti ilə Pekinə ezam olunmuş və "Şen-Li LTD" şirkəti ilə sazişin işlənib hazırlanmasında ekspert kimi fəaliyyət göstərmişdir.

Q. Səfərov 2005-ci ildə "Neftqazçıxarmada istehsal səmərəliyinin iqtisadi problemləri və onların həlli yolları" mövzusunda iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmişdir.

Onun elmi maraq dairəsi bütövlükdə iqtisadi problemlər və onların həlli yollarının araşdırılması; neft yataqlarının işlənməsi və neft hasilatının iqtisadi problemləri; neft quyularının qazılması və geologiyasının iqtisadi problemləri; investisiya layihələrinin iqtisadi qiymətləndirilməsi; iqtisadiyyatda iqtisadi-riyazi və iqtisadi-statistik üsulların tətbiqi; riski nəzərə almaqla müxtəlif situasiyalarda iqtisadi qərarların qəbulu və s. əhatə edir.

Uzun illərdir ki, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində dərs deyən Qənimət müəllim 2014-cü ildə həmin universitetin "Neft-kimya sahələrinin iqtisadiyyatı və menecment", 2015-ci ildən isə "Sənayenin iqtisadiyyatı və menecment" kafedralarının müdiri, 2021-ci ilin aprel ayından isə "Sənayenin iqtisadiyyatı" kafedrasının professoru vəzifələrində çalışır.

Q.Səfərov 1987–2005-ci illərdə Bakı Dövlət Universitetində "İqtisadiyyatın riyazi və instrumental üsulları" İxtisaslaşmış Elmi Şurasında seminarın üzvü, 2006–2010-cu ildə isə bu Elmi Şuranın üzvü olmuşdur. O, həmçinin 2006–2010-cu illərdə Azərbaycan Dövlət Neft Akademiyasında fəaliyyət göstərmiş "Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi" İxtisaslaşmış Elmi Şurasının üzvü, elmi katibi kimi fəaliyyət göstərmişdir.

O, bir çox iddiaçıların rəsmi opponenti olmuş, onun bilavasitə rəhbərliyi ilə iyirmidən çox dissertasiya işi müdafiə edilmişdir.

Q.Səfərov 2010-cu ildən 2016-cı ilə kimi Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının "İqtisadiyyat" üzrə Ekspert Şurasının sədr müavini və sədri kimi fəaliyyət göstərmişdir.

Qənimət Səfərov Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində 2014–2018-ci illərdə fəaliyyət göstərmiş Dissertasiya Şurasının sədr müavini kimi çalışmışdır.

Qənimət müəllim "Azərbaycan neft təsərrüfatı", İvano-Frankovsk Neft-Qaz Milli Texniki Universitetinin "Науковий вістник" jurnallarının redaksiya heyətinin üzvü, Azərbaycan Vergi Jurnalının ekspertidir.

İqtisad elmləri doktoru, professor Q.Ə.Səfərov 9 monoqrafiya, 1 kitab, 2 dərslik, 3 dərs vəsaiti, 3 metodika və 200-dən artıq elmi məqalənin müəllifidir. O, bir sıra beynəlxalq və Respublika səviyyəli simpozium və konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

Professor Qənimət Səfərov bu gün də gənclik həvəsi ilə çalışır, hal-hazırda 6 nəfər fəlsəfə üzrə, 3 nəfər isə elmlər doktorluğu üzrə doktoranta elmi rəhbərlik edir.

Qənimət müəllimi yubileyi münasibətilə təbrik edir, ona cansağlığı və elmi işlərində uğurlar arzulayırıq.

**"Azərbaycan neft təsərrüfatı" jurnalının**
**redaksiya heyəti və kollektivi**